https://doi.org/10.59849/3006-1342.2024.1.94
UOT 94

*M.M.Məmmədzadə*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail:* mahir.mammadzada69@gmail.com

# ATLANTİK MÜNASİBƏTLƏR "İRAQ BÖHRANI" KONTEKSTİNDƏ

*"Soyuq müharibə" dövründə bütün məsələlərdə yekdillik olmasa da, ümumilikdə ABŞ rəhbərliyi və onun istifadə etdiyi gücün legitimliyi avropalılar tərəfindən həm zəruri, həm də arzuolunan hesab edilirdi. Avropanı ABŞ-dan daha müstəqil olmağa çağıran yeni yaranan Qollizm, Ostpolitik və digər hərəkatlar, Avropanın ABŞ-dan asılılığının azalmasının və fəaliyyət azadlığı əldə etməsi arzusunun təzahürü idi. ABŞ-a qarşı meydana çıxan bu hərəkatlar, onun "Soyuq müharibə" strategiyasının bir sıra avropalı tərəfindən çox ziddiyyətli, militarist və təhlükəli hesab edildiyini göstərir. Bu məqalədə, 1990-cı illərin əvvəllərindən başlayaraq ABŞ-ın gücə əsaslanan xarici siyasətinə qarşı Avropa ictimaiyyətində yaranan fikir ayrılıqlarının "İraq böhranı" fonunda tədqiq edilmişdir.*

*Bu məqsədlə, İraq böhranı, yeni dünya düzəni, ikiqütblü sistemin dağılması və Atlantik ziddiyyətlərə dair elmi əsərlərdən istifadə edilməklə, təhlil edilmiş, bu zaman analitik-induktiv, tarixi-sistemli, müqayisəli təhlil, analogiya kimi metodlardan istifadə edilmişdir.*

*Məqalənin əsas elmi yeniliyin bundan ibarətdir ki, tədqiq olunan mövzuya dair daha çox xarici mənbələrdən istifadə edilməklə, Atlantik münasibətlərdə yaranan ziddiyyətlərin ən mühüm təzahür forması kimi İraq böhranı hərtərəfli təhlil edilmişdir.*

*Tədqiqatın nəticəsi kimi, İraq böhranının Avropa üzərində amerikan təzyiqinin və gözləntilərinin artması ilə müşahidə edilən beynəlxalq problem kimi, həmçinin Antantik münasibətlərdə istər rəsmi, istərsə də ictimai səviyyədə ziddiyyətlərin genişlənməsində mühüm rol oynadığı müəyyən edilmişdir. Avropa ictimai rəyi yeni dünya nizamında öz müstəqil xarici siyasətini həyata keçirməsi və ABŞ-dan hərbi asılılığın aradan qaldırılması üçün getdikcə daha yekdil mövqe sərgiləməyə başlamışdır.*

*Açar sözlər:* Atlantik münasibətlər, Atlantik ziddiyyətlər, İraq böhranı

## *Giriş*

Avropalılar Soyuq Müharibədən sonrakı dövrdə özlərinin nisbi gücsüzlüyünün və Amerikanın xarici siyasətinə təsir imkanlarının azalmasının ağrısını tez-tez hiss ediblər. Məsələn, tərəddüdlü Klinton administrasiyası nəhayət 1999-cu ildə Kosovoya müdaxilə edəndə avropalılar bu çətin əməliyyatı öz arxa bağçalarında amerikalı generalın tək başına idarə etməsini müşahidə etməli oldular. Kosovaya edilən müdaxilə üçün də Klinton admistrasiyası, BMT-nin qərarı olmadan hərəkata başlamışdı. Hətta bu əməliyyatın gələcəkdə analoji müdaxilələr üçün əlverişli nümunə kimi yadda qalacağına ümid edilirdi. Klinton administrasiyası "mümkünsə çoxtərəfli, lazım gələrsə birtərəfli" şüarını qəbul etmişdir (Robert Kagan, "America's Crisis of Legitimacy", Foreign Affairs 83(2), 2004, pp. 65). Onsuz da Klintonun dövründə Amerikanın birtərəfliliyinin artması onu göstərir ki, dəyişiklik şəxsi amillərlə deyil, daha sistemli xarakter daşıyır. Buşdan əvvəl Klinton və Olbrayt ABŞ-ı "vacib olmayan millət" kimi xarakterizə edərkən, Çin, Fransa və Rusiya xarici işlər nazirlərinin fikrincə, birqütblü dünya təhlükəli və ədalətsiz idi. Digər gücləri narahat edən bu birtərəflilik ABŞ-ın özündən də tənqid obyektinə çevrilmişdir. Huntington [1999] ABŞ-ın bir növ anarşik, hüquq tanımayan super gücə çevrilərək, sistemin yükünü çəkməkdən çox, öz maraqlarının

arxasında gedən bir hegemona çevrildiyini müşahidə etmişdir (Brent J. Talbot, “The Transatlantic Gap over Iraq” European Security, 17 (1), 2008, s.64). Hantinqton ABŞ-ın təkəbbürlü və birtərəfli xarici siyasətinin təhlükələrini qeyd edərkən, Buş hələ də Texas qubernatoru idi və prezident seçilərkən ritorik səviyyədə ABŞ-ın gücündən təvazökarlıqla istifadə edilməli olduğunu vurğuladı.

Hətta Bill Klintonun prezident olduğu dövrdə belə, amerikalılar, öz gücləri və fəzilətləri ilə həddən artıq dərəcədə öyünməyə başladılar, yaşadıqları dövləti “xeyirxah hegemon güc” olaraq (benevolent hegemon) olaraq gördülər, ABD-ın prinsiplərinin, praktik addımlarının və institutlarının ümumbəşəri dəyərlərə söykəndiyini qeyd etdilər. 1997-ci ildə baş tutan G-7 zirvəsində Klinton, Amerikan iqtisadiyyatının əldə etdiyi nailiyyətləri digər dövlətlərə nümunə kimi qeyd edərkən, M. Olbrayt isə “diğər millətlərdən daha uzaqgörən olduqları” ilə fəxr etdiklərini qeyd etdi (Huntington, S.P. “The Lonely Superpower” Foreign Affairs, 78 (2), 1999, s.39). Özünə inam hissinin bu qədər yüksək səviyyəyə çıxması səbəbsiz deyildi. Maraqlı bir dövrə qədəm qoyan dünyada ABŞ-ın elmi tədqiqat işlərinə ayırdığı yüksək məbləğlər, dünyanın ən qabaqcıl universitetlərinə malik olması, immiqrantlar sayəsində demoqrafik canlılıq kimi üstünlükləri var idi. Tez-tez təklif olunurdu ki, Avropa da eyni şəkildə texnoloji inkişaf üçün daha çox büdcə ayırsın, beynəlxalq miqrasiyaya daha dözümlü olsun və immiqrantları inteqrasiya etmək üçün “Amerika arzusu” anlayışını özününkiləşdirsin. (Zakaria, F. The Future of American Power. Foreign Affairs, 87 (3), 2008, s. 27).

ABŞ-ın artan təkəbbüründən narahat olan bir sıra avropalının qorxusu 11 sentyabr 2001-ci il hadisəsindən sonra öz haqlılığını göstərdi. Həmin tarixdən etibarən, ABŞ öz maraqlarına təhdid təşkil edən dövlətlərin və təşkilatların siyahılarını hazırladı, onlara qarşı mübarizədə birbaşa hərbi müdaxiləyə üstünlük veriləcəyini açıq şəkildə elan etdi. Bu üsul Avropanın konseptual yanaşması ilə tamamilə ziddiyyət təşkil edirdi. Məsələn, Səddam Hüseynin həqiqətən təhlükə olub-olmadığı və İraq böhranını aradan qaldırmağın ən optimal üsulları Antantik dövlətlər arasında müzakirə mövzusunu təşkil etdi. Fransanın Xarici işlər naziri Dominik de Vilpenin qeyd etdiyi kimi, avropalıların əksəriyyəti üçün problem “dünyaya iki fərqli baxış” arasındakı uçurumda gizlidir. İraqla bağlı müzakirələr təkcə üsula dair deyildi, həmçinin prinsiplərlə bağlı idi. Böhrandan əvvəl, aparılan rəy sorğuları göstərir ki, amerikalıların 80 %-dən çoxu müharibənin bəzən ədalət gətirdiyini düşünür, avropalıların isə 50 %-dən az bir hissəsi eyni fikirlə şərikdir. İraq böhranı ilə daha aydın oldu ki, amerikalılar və avropalılar beynəlxalq hüquq və qurumların rolu haqqında ciddi fikir ayrılığına malikdirlər. Problemlərin dərinliyinin başqa bir göstəricisi isə odur ki, ABŞ çoxtərəfliliyi dar mənada “müttəfiqləri razı salmaq” olaraq başa düşdüyü halda, Avropa İttifaqı üçün isə çoxtərəflilik həmçinin regional inteqrasiya əməkdaşlığı, vətəndaş cəmiyyətinin inkişafını da özündə birləşdirir. Əslində fikir ayrılıqları İraq müharibəsindən və oğul Buşun prezidentliyi dövründən əvvəl də mövcud idi. Lakin İraq müharibəsi Avropa liderlərini bunu açıq şəkildə ifadə etməyə məcbur etdi. Jak Şirak və Toni Bleyr açıq şəkildə Amerikanın təktərəfli hərəkət etməsini tənqid edərkən, Şrödərə görə, “Amerika Avropadan fərqli idi” və bu, danılmaz bir faktdır. Belə əhval-ruhiyyənin nəticəsi olaraq, əksər avropalılar Vaşinqtonun İraq, İran və Şimali Koreyada kütləvi qırğın silahları ilə bağlı arqumentlərini qəbul etmədilər. İraqa müdaxilənin əsas səbəbinin də neft olduğuna dair geniş kütlələr arasında fikir birliyi yarandı (Kagan, “America's Crisis of Legitimacy”, p. 66).

Fransa və Böyük Britaniya kimi bəzi Avropa ölkələri, ABŞ-ın Avropanı daha çox dinləməsi üçün ikincinin daha realist aktor kimi öz gücünü artırmasının vacib olduğunu iddia etsələr də, digər avropalı dövlətlər bununla razılaşmamış, onlar Avropanın yenidən imperialist gücə çevrilməsinə qarşı çıxmışlar. Avropa İttifaqı daxilində iradəsizlik və müəyyən baxış birliyinin olmaması kimi səbəblərdən bu ideya tam olaraq dəstək görməmişdir. Əslində,

Soyuq müharibə dövrünün başa çatması ilə Amerikanın görünməmiş qlobal hökmranlığı həm amerikalıların, həm də avropalıların düşünməli olduğu kritik məsələyə çevrilmişdir. Almaniyanın Xarici İşlər Naziri Fişer, "əsas partnyorumuz, çox təhlükəli qərarlar qəbul etdiyi bir dövrdə nə etməliyik" deyə sual verirdi. ABŞ-a qarşı nə etməli olduqlarını, balanslaşdırılması lazımdırsa ki, bunu tək başına Avropanın etməsi mümkün deyil, digər dövlətlərlə necə bir əməkdaşlıq formatı qəbul etməli olduqları kimi həlli çətin problemlər ortada dururdu. ABŞ nə Fransanın, nə də özünün Vietnamdakı təcrübələrindən dərs almamış kimi hərəkət edərkən, dünya miqyasında hərbi sahəyə sərf edilən vəsaitlərin 40 %-ni həyata keçirərək, ən yaxın təqibçisi olan ikinci dövləti on dəfə üstələmişdir ki, belə bir nəhəng güc üzərində avropalıların nəzarətinin azalması, təbii olaraq Avropanı narahat etmişdir. ABŞ tərəfindən baxıldıqda isə, ən çox diqqətini cəmləşdirdiyi, yüksək əhəmiyyət kəsb edən məsələlərdə Avropa İttifaqı çox təsirsiz görünürdü. Bir nümunə ilə izah etmək lazım gəlsə, Avropa İttifaqı keçmişdə İrana qarşı tətbiq edilən siyasi kursda belə vaxtaşırı ABŞ ilə fikir birliyi içində olsa da, İranın nüvə proqramına qarşı Tehranın direniş göstərdiyi və gərginliyin artdığı dövrlərdə belə həmrəylik nümayiş etdirə bilməmişdir (Sten Rynning, 'Peripheral or Powerful? The European Union's Strategy to Combat the Proliferation of Nuclear Weapons', European Security, 16 (3), 2007, s. 271; Tom Sauer, 'Struggling on the World Scene: An Over-ambitious EU versus a CommittedIran',European Security, 17 (2), 2008, s. 278).

ABŞ və Avropa İttifaqı üçün 11 sentyabrın təsiri və bu hadisədən sonra qlobal miqyasda yaşanan hadisələrə baxış tərzləri bir-birindən ayrılmışdır. Daha çox qlobal dəstək gözləntisi içində olan Vaşinqton və onun mövqeyini paylaşanlara görə, Avropa İttifaqı lazım olan dəstəyi nümayiş etdirmədiyi üçün güc göstərisində zəiflik meydana gəlmiş, qarşı tərəf bu boşluğu hiss etmişdir. Münaqişə zonalarına əsas müdaxilə ABŞ tərəfindən həyata keçirilir, avropalılar isə ikinci dərəcəli vəzifələri yerinə yetirirlər (Kagan, 'Power and Weakness, p.5). Avropalıların mövqeyinə görə isə, ABŞ-ın hərbi müdaxilələri müttəfiqlərin fikirləri nəzərə alınmadan, müştərək məsuliyyət yükləyəcək formadan uzaq və ən əsası isə beynəlxalq hüquqi əsaslardan yoxsun həyata keçirilmişdir. Hərbi müdaxilələr zamanı insan hüquqları və humanitar hüquqa zidd çox saylı faktlar qeydə alınmışdır (məsələn, Quantanamo, Əbu Qureyb). ABŞ-ın dünyanın hegomon güc göstərisi sürətlə daha təhlükəli hal almağa başlamışdır (Kagan, "America's Crisis of Legitimacy", 67).

İdealist Avropa fikrini müdafiə edənlərə görə, Avropa İttifaqının qurucu fəlsəfəsinə xəyanət etmədən onun xarakterinə və ideallarına uyğun yumşaq güc və ya ağıllı güc modelini daha da təkmilləşdirmək lazımdır. Bu səbəblə, Avropa İttifaqı, effektiv hərbi qüvvə olmadığını açıq şəkildə bəyan etməlidir (Tsoukalis, L. 'The JCMS Lecture: Managing Diversity and Change in the European Union" JCMS, 44 (1), 2006, s. 7-8). Kofi Annan kimi [2003] bəzi müşahidəçilərə görə, Avropa İttifaqı, təkcə öz coğrafiyası üçün deyil, həmçinin "beynəlxalq terrorçuluqdan iqlim dəyişikliyinə qədər" qlobal miqyaslı bir sıra məsələdə, ümidin, sülhün və konsensusun "dəniz fənəri" vəzifəsini yerinə yetirməlidir (Manners I. European Union 'Normative Power' and the Security Challenge. *European Security,* 15 (4), 2006, s. 409). Tədqiqatçı Aş kimi bu fikrə etiraz edənlər isə, çətin seçimlərdən uzaqlaşaraq, Avropa əslində öz gələcək siyasi taleyini müəyyən etmişdir: yumşaq, yavaş, parçalanmış bir çökmə (With this timid choice of leaders, the EU may have the faces it deserves', guardian.co.uk, 25 Kasım 2009.). Bununla belə, Avropa İttifaqı bir sıra tədqiqatçının təsvir etdiyi qədər zəif siyasi güc deyil. "Ən yaxın təhlükə" kimi qəbul edilən Rusiyadan iqtisadi cəhətdən 14 dəfə, əhalisinin sayına görə təqribən 4 dəfə böyükdür. Nüvə silahlarına malik iki üzvü var (Fox, J., Godement, F. A Power Audit of EU-China Relations, Londra, European Councilon Foreign Relations, 2009, s. 41).

Amerikanlar, kütləvi qırğın silahlarının yayılması, terrorizm, "qiyamçı" və "quldur" dövlətlər kimi kənar təhlükələrdən bəhs etdikləri halda, Avropalılar etnik münaqişə,

miqrasiya, miqrantlar, mütəşəkkil cinayətkarlıq, yoxsulluq və ekoloji çirklənmə kimi bütün bəşəriyyəti yaxından maraqlandıran mövzulara diqqət yetirirlər (Kagan, 'Power and Weakness', p. 7). Avropalıların əksəriyyəti ABŞ-ın qlobal mövqeyini və strategiyalarını yanlış hesab edirlər, çünki tam təhlükəsizlik deyilən bir şey yoxdur və bütün riskli vəziyyətlər təhlükə demək deyil. Avropalılar ABŞ-ın təhlükəsizlik problemlərini şişirtdiyini qeyd etdikləri halda, amerikalılar isə 11 sentyabr hadisələri təhdidlərə lazımi səviyyədə ciddi yanaşmadıqda hansı nəticələrin meydana gələcəyini göstərdiyini qeyd edirlər (Kagan, "America`s Crisis of Legitimacy", p.68).

Iraq böhranı zamanı da müşahidə edildiyi kimi, Avropa İttifaqına daxil olan dövlətlər, ABŞ-ın davam edən təhdid qavrayışı səbəbilə, öz mövqelərini müəyyən etmək məcburiyyətində qaldıqda, İttifaq ikiyə parçalanma təhlükəsi ilə qarşılaşa bilər. Eyni zamanda avropalıların əksəriyyəti, Buş dövründə çox da ehtiyac olmadığı halda, məqsədli şəkildə dünyadakı hərbi xərclərin böyük hissəsini həyata keçirən ABŞ-ın belə hərbi metodlarla istədiyi nəticələri əldə edə bilmədiyi mürəkkəb şəraitdə, Avropa İttifaqının da bu cür hərəkət etməsini düzgün qarşılamamışlar (Hanns W. Maull, "Europe and the new balance of global order". International Affairs, 81 (4), 2005, s. 783). Kaqan kimi tədqiqatçılar, Avropanın, quldur dövlətlərin, ABŞ-ı hədəf seçdiklərini bildikləri üçün, daha çox təhdidlə qarşı-qarşıya qalmamaq məqsədilə, zəif və passiv görüntü verməyi seçdiklərini iddia edirlər. Buna qarşılıq, zəif profil nümayiş etdirməyin Avropa İttifaqını xarici siyasi təhlükələrə qarşı qoruduğunu qəbul etməklə yanaşı, ittifaqın normativ bir model olaraq mövcudluğunu qorumasını müdafiə edənlər, onun kənarda "qorxulu qüvvə" axtarışında olmamasının tənqiddən çox, alqışalayiq olduğunu qeyd edirlər. Xüsusilə, ABŞ-dan qaynaqlanan təzyiqlər nəticəsində, müəyyən dövrlərdə Avropa İttifaqının qlobal bir aktor olduğu və beynəlxalq təhlükəsizlik üçün məsuliyyəti bölüşməyə hazır olduğu qeyd edilsə də, bu, Avropanın qlobal nüfuz və iqtisadi gücünün zəifləməyə başladığı bir dövrdə çox da mümkün görünmür. (Asle, T. "The European Union as a Small Power, or Conceptualizing Europe's Strategic Actorness". European Integration, 30 (2), 2008, s. 209-210).

Son dövrlərdə Avropalılar daha çox beynəlxalq məsələlərə introvert, öz şəxsi rifah səviyyələrini əsas alaraq eqoist üslubda yanaşırlar, iqtisadiyyat başda olmaqla, daxili problemlərin müzakirəsinə üstünlük verirlər. Bu gün artıq Avropa İttifaqı normaları daxilində həm vətəndaşlara qarşı güc tətbiq etmək, eyni zamanda xarici siyasətdə gücə əsaslanmaq öz legitimliyini itirmişdir. Avropa ictimaiyyətinin üçdə ikisinə görə, onların övladlarının Əfqanıstanda həyatlarını riskə atması qeyri-qanunidir. Avropanın əsasını təşkil edən dəyərləri qorumaq üçün Avropa İttifaqının daha müdaxiləçi xarici siyasət kursuna ehtiyacı olduğu arqumentini dəstəkləyənlərin sayı olduqca məhduddur. İqlim dəyişikliyi, yoxsulluq, aclıq kimi qlobal təhlükələr, Rusiya və yüksələn Çin kimi bu günün çağırışları, Hitler və ya Stalin orduları qədər qorxuducu və birləşdirici deyil. Avropa İttifaqı vətəndaşları həmçinin, Rusiyadan çox, maliyyə böhranları, işsizlik, səhiyyə, baxımsızlıq, yoxsulluq və iqlim dəyişikliyi kimi problemlərə daha həssas yanaşırlar və bu problemlər onları daha çox narahat edir (De Vasconcelos, A. (red.). The European Security Strategy 2003-2008, ISIS Report № 5, 2009).

Xüsusən də Fransa, ABŞ-ın "ağzına baxılmasına" və Avropa İttifaqının adətən, bir yüklənici firma kimi ikinci dərəcəli işlərlə özünü məhdudlaşdırmasına qarşı çıxan dövlətlərin başında yer alır. Fransa, əsas etibarilə, Avropanın, Amerikanın xarici siyasət kursundan asılılıqdan mümkün qədər xilas olmasını, artıq yetkinlik səviyyəsinə uyğun hərəkət etməsi lazım gəldiyini irəli sürərkən, Britaniya isə hesab edir ki, Avropa İttifaqı ABŞ-ın yanında daha çox çəkiyə sahib olmaq üçün daha effektiv qlobal gücə çevrilməli və ABŞ-a daha çox yardım edərək, münasibətləri daha səmərəli hala gətirməlidir. Almaniya tarixi və strateji

faktorlar səbəbilə, Fransa və Amerikanın mövqelərinin ortasında yerdə dayanmaqla, birinciyə ənənəvi dəstəyi vermir.

Avropa İttifaqı digər böyük güclərlə müqayisədə hərbi cəhətdən effektiv təsir gücünə malik deyil. Halbuki təhlükəsizlik strategiyasını hazırlayan Javier Solanaya görə, İttifaq, müdafiə xərcləri üçün 60 milyard Eurodan çox ayıran bir güc olaraq, bir neçə hərbi əməliyyatı eyni zamanda həyata keçirə bilmək qabiliyyətinə malik olmalıdır ("A Secure Europe in a Better World: European Securıty Strategy". Javier Solananın hazırladığı və Avropa Şurasının qəbul etdiyi sənəd. 12 dekabr 2003-cü il). Atlantikin qarşı tərəfindən müşahidə edildikdə isə, Avropa İttifaqı heç olmasa ilk başda öz "arxa bağçası"nda regional fəallığa malik olmalıdır. Məsələn, Balkanlar bölgəsi əslində Avropa İttifaqının nüfuz sahəsinə daxildir. İttifaq, artıq yetkin bir güc olaraq qəbul edilməyi arzulamaqda, lakin öhdəliklərini də tam mənasıyla yerinə yetirməlidir ki, bu zaman qlobal miqyasda yükü ABŞ-ın tək başına çiyinlərində daşımasına ehtiyac qalmayacaqdır. Avropa ABŞ ilə daha sağlam zəmində əməkdaşlıq etməsi üçün mütləq surətdə hərbi cəhətdən öz qüdrətini artırması vacib şərtdir (Tracey German, 'Visibly Invisible: EU Engagement in Conflict Resolution in theSouth Caucasus', European Security, 16, (3-4), 2007, s. 368). Hərbi xərclərinin, qeyri-rəsmi hədəf olan ÜDM-in 2%-i səviyyəsinə artırması, Avropa İttifaqı üçün illik 280-300 milyard Euro həcmində büdcə deməkdir. Hərbi xərclər üçün daha çox maliyyə vəsaiti ayrılması və xərclənməsi, həmçinin bu vəsaitin səmərəli şəkildə xərclənməsi üçün edilən çağırışlar, Solana dövründə tez-tez eşidilən fikirlərdi ("A Secure Europe in a Better World: European Securıty Strategy". Javier Solananın hazırladığı və Avropa Şurasının qəbul etdiyi sənəd. 12 dekabr 2003-cü il). Yalnız bu zaman, ABŞ-dan daha çox hörmət qazanıla bilərdi.

ABŞ tərəfindən sıxışdırılmamaq və onun siyasətinə daha çox təsir imkanına malik olmaq üçün çıxış yolu İttifaqın daha güclü müttəfiqə, qlobal miqyaslı aktora çevrilməsi lazımdır. Beləliklə, Avropa İttifaqının daha çox hörmət görməsi və sözünün eşidilməsi üçün güclü hərbi imkana malik olmaqla, lazım gəldiyində daha çox töhfəsini verməlidir. Tək başına qərar qəbul etmək və hərəkət etmək imkanı məhdudlaşacaq ABŞ, belə olan halda əməkdaşlığa daha açıq hala gələcəkdir (Brent J. Talbot, "The Transatlantic Gap over Iraq" European Security, 17 (1), 2008 , s. 71). Bəzi amerikalılar bu məsələdə Avropa İttifaqını çox sərt tənqid edirdilər. Kagana görə, İttifaq, Sovetlərin dağılmasını qlobal miqyaslı bir gücə çevrilmək üçün qarşılarına çıxan fürsət olaraq dəyərləndirmək yerinə, hərbi xərcləri azaldaraq bu fürsəti pula çevirməyə üstünlük verdilər (Kagan, 'Power and Weakness). Halbuki Avropa İttifaqı, əslində ABŞ-dan sonra ikinci ən böyük büdcə ayıracaq maliyyə resurslarına malikdir. Hərbi xərclərdə böyük kəsintiyə gedilməsinin səbəbləri kimi, İttifaqa daxil olan dövlətlərin mövcud rəhbərliyi və ictimai rəyin strukturu göstərilsə də, bu, amerikalıları qane etməmişdir (Posen, B. "Response. European Union Security and Defense Policy: Response to Unipolarity?" Security Studies 15, no. 2, 2006, s. 47). 2005-ci ildə ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Nuland qeyd etdi ki, yalnız 7 NATO üzvü (İngiltərə, Fransa, Bolqarıstan, Yunanıstan, Rumıniya, Türkiyə və ABŞ) qeyri-rəsmi minimum hədəf olan ÜDM-in 2%-i həcmində müdafiə büdcəsi ayırıb (V. Nuland (United States Permanent Representative to the North Atlantic Treaty Or-ganization) Speech to Presse, Club and AmCham 22.02.2008.). Amerikalılar müəyyən mənada avropalıları qlobal böhranlarda öz iqtisadi güclərinə uyğun hərbi yük götürmədiklərinə və Soyuq müharibə dövründə Amerikanın onları müdafiə etməsinə qarşılıq olaraq lazımi "minnətdarlıq" göstərmədiklərinə görə tənqid edirdilər (Alyson J. K. Bailes "The EU and a 'better world': what role for the European Securityand Defence Policy?" International Affairs 84(1), 2008, s. 119).

11 sentyabr hadisəsindən sonra Corc Buş administrasiyası tərəfindən həyata keçirilməyə çalışılan tək qütblü beynəlxalq sistem, prezident Buşun özünü "müharibə dövrü"nün prezidenti hesab etməsi, bu səbəblə ABŞ-ın dünyanın istənilən nöqtəsinə müdaxilə etmək

hüququna malik olduğuna inanması ilə daha da özünü göstərməyə başladı. ABŞ-ın hərbi müdaxilələri çox vaxt həssas regionlarda həyata keçirilirdi ki, bu bölgələrdə Avropa dövlətlərinin də milli maraqları mövcuddur. Məsələn, ABŞ-ın ən fəal olduğu Yaxın Şərqdə yürütdüyü xarici siyasət kursu, nəinki həmin bölgədə, hətta dünyanın bir sıra bölgələrində yaşayan müsəlman kütlələri narahat edir, ən əsası isə onların müəyyən bir hissəsini radikallaşdırır. ABŞ-ın bu şəkildə ölçüsüzcə "hiperaktivləşməsi" Avropanın təhlükəsizliyinə töhfə vermək yerinə problemlər yaradır. Amerika siyasəti Avropanın müsəlman qonşularını qarşıdurma mövqeyinə, bəlkə də sivilizasiyaların toqquşmasına sürükləyir. Eyni şəkildə, ABŞ-ın Rusiyanın yaxın qonşuluğuna (məsələn, Gürcüstan) hərbi müdaxiləsi Avropanın Rusiya ilə münasibətlərini daha da mürəkkəbləşdirdi. Eyni zamanda qeyd etmək lazımdır ki, ABŞ-ın digər qlobal aktorlara nisbətdə hərbi qüdrətini bu qədər artırması və rahat hərəkət etməsi, daxili konstitusional balansı da zədələmişdir.

Buşun prezidentliyi dövründə, tək tərəflilik və "qabaqlayıcı müharibə" kimi Avropa İttifaqının əsas dəyərlərinə zidd olan prinsiplərə əsaslanan ABŞ-a dəstək verilib-verilməməsi məsələsində İttifaq içində dualizm meydana gəlmişdir. NATO-nu Avropa qitəsinin xaricində baş verən münaqişələrə və təhdidlərə (məsələn, beynəlxalq terrorçuluq, qiyamcı dövlətlərin əlində mövcud olan kütləvi qırğın silahları) qarşı, dünya jandarması kimi hərəkət etmək istəyən ABŞ, Fransa, Almaniya və Niderland Krallığı kimi paktın ən köhnə üzvlərindən arzuladığı dəstəyi əldə edə bilmədiyi üçün qəzəblənmişdir. Soyuq müharibədən sonrakı dövrdə, ABŞ-ın hərbi texnologiyaya böyük sərmayə qoymağa davam etməsi nəticəsində, Atlantik hərbi münasibətlərində birgə hərbi əməliyyatlar həyata keçirmək zəmini getdikcə zəifləmiş, hərbi mədəniyyətlərdə fərqliliklər meydana gəlmişdir ("The Future of American Power" Zakaria, Fareed, Foreign Affairs, 2008, Vol. 87, Issue 3, p. 33). Xüsusilə, Fransa kimi üzvlər "NATO hər yerdə ola bilməz" deyərək, İttifaqın ABŞ-dan daha müstəqil qəraralma və hərəkət qabiliyyətinə malik olmasına təkan vermiş, ABŞ isə öz milli mənafeyi doğrultusunda qarşısına çıxan problemləri hərbi yollarla həll edə biləcəyini isbat etməyə çalışmışdır.

Amerikalıların əksəriyyəti hesab edirdi ki, Avropa, terrorizmlə mübarizədə çox yetərsiz qalır və yumşaq davranır. Terrorçulara qarşı effektiv tədbirlər görə bilməməkdə yaxud görmək istəməməkdə, sakitləşdirci (sedativ) siyasət yürütməkdədir. Buna qarşılıq, avropalılar üçün ABŞ-ın terrorçuluqla mübarizədə qlobal miqyaslı mübarizəyə girişməsi və bu mübarizənin idarə edilməsi özündə bir sıra səhvləri daşımışdır. İraq və Əfqanistan böhranları nəzarətdə saxlanıla bilməyən proseslər olmuşdur. Amerikalıların az qala dini ehtirasla, özlərini müqəddəs mistik vəzifələrin gözlədiyinə inanması, bir tərəfdən dini və əxlaqi məsələləri birləşdirməyə cəhd etməsi, digər tərəfdən isə açıq şəkildə qlobal siyasi, iqtisadi və hərbi ağalıq axtarışında olması, dünyəvi Avropa tərəfindən başa düşülən olmaqdan uzaq olmuş və təhlükəli hesab edilmişdir. (Domenico Losurdo, "Preemptive War, Americanism, And Anti-Americanism", Metaphilosophy, 35 (3), 2004, s. 369-370).

Qlobal miqyasda enerji istehlakı və onun səbəb olduğu iqlim dəyişikliyi problemi bəşəriyyətin taleyini maraqlandıran mühüm əməkdaşlıq sahəsi olmalı lazımkən, Avropadan baxdıqda, ABŞ neftdən həddsiz asılılığı və enerjidən səmərəsiz istifadə etdiyinə görə, neqativ rəy alır (Cengiz Dinç, Islamism, Modernity And The West In Turkey: The Role Of The WelfareParty, Eskişehir, 2009, s.91). Prezident Barak Obama qlobal istiləşməni texnogen təbii fəlakət kimi qeyd etməsə də, fosil yanacaqlardan bu şəkildə istifadə edilməsinin bəşəriyyəti sonu qaranlıq bir yola soxduğunu qeyd etmişdir. Bunun başa düşülən olmasına baxmayaraq ABŞ ilə Avropa dövlətləri arasında qlobal istiləşmə ilə mübarizədə effektiv əməkdaşlıq mövcud olmamışdır. Çünki dünyanın ən böyük istixana qazları emissiyasına baxmayaraq, Birləşmiş Ştatların bu məsələdə mövqeyi kifayət qədər qeyri-müəyyəndir. Müxtəlif ştatların səylərinə baxmayaraq, ümumilikdə, 1990-2005-ci illər arasında enerjidən istifadə nəticəsində karbon qazı emissiyaları Aİ-də 3 faiz azaldığı halda, ABŞ-da isə 20 faiz

artmışdır (Álvaro de Vasconcelos ve Marcin Zaborowski (ed) "European perspectives on thenew American foreign policy agenda" 2009, ISS, Paris, s. 122). Obama administrasiyası da bu ziddiyyətdən xəbərdar idi və daha təmiz avtomobillər istehsal etmək kimi müxtəlif tədbirlər görməklə ətraf mühitə verilən zərərin azaldılmasının yollarını axtarırdı (Barack Obama, "Renewing American Leadership", Foreign Affairs, 2007, 86 (4), s. 12). Bundan əlavə, ekspertlərin fikrincə, ABŞ və Avropa arasında nüvə silahının, həmçinin digər kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, tərksilah kimi məsələlərdə mühüm əməkdaşlıq sahələri mövcuddur. Lakin Avropa özünü əsas təhlükə kimi görmədiyinə və üslub fərqlərinə görə tərəflər arasında bu sahələrdə də Atlantik ziddiyyətlər qalmağa davam etmiş, qeyd olunan məsələlər əsasən Amerikanın bir növ "daxili" məsələsi hesab edilmişdir.

ƏDƏBİYYAT

1. A Secure Europe in a Better World: European Securıty Strategy: [Elecrton recurs] / 2003. 12 dekabr, URL: chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https:// www.consilium.europa.eu/media/30823/qc7809568enc.pdf
2. Alyson J.K. Bailes "The EU and a 'better world': what role for the European Security and Defence Policy?" International Affairs 84(1), 2008, s. 115-130.
3. Ash T.G. The US has lost its focus on Europe. It's up to us to get our act together / 2009. 7 oktyabr, URL: http//guardian.co.uk.
4. Asle T. The European Union as a Small Power, or Conceptualizing Europe's Strategic Actorness. European Integration, 30 (2), 2008, s. 199-215.
5. Brent J. Talbot, The Transatlantic Gap over Iraq. European Security, 17 (1), 2008, s. 61-84.
6. Brzezinski Z. An Agenda for NATO: Toward a Global Security Web. Foreign Affairs, 88 (5), 2009, s. 2-21.
7. Calleo D.P. The Broken West. Survival, 46 (3), 2004, s. 29-38.
8. Dinç C. Islamism, Modernity And The West In Turkey: The Role Of The Welfare Party, Eskişehir: Savaş Nəşr., 2009, 302 s.
9. Evidence was given to the House of Lords EU Select Committee, 'The further enlargement of the EU: threat or opportunity?', 2006.
10. Fox J., Godement F.A. Power Audit of EU-China Relations. Londra, European Council on Foreign Relations, 2009.
11. German Marshall Fund, The 'Translatlantic Trends' opinion poll for 2007, http://www.transatlantictrends.org/ trends/index.cfm?id=54
12. German T. Visibly Invisible: EU Engagement in Conflict Resolution in the South Caucasus. European Security, 16, (3-4), 2007, s. 357-374.
13. Huntington S.P. The Lonely Superpower. Foreign Affairs, 78 (2), 1999, s.35-49.
14. Jacoby W., Jones, C. The EU Battle Groups in Sweden and the Czech Republic: What National Defense Reforms Tell Us about European Rapid Reaction Capabilities. European Security, 17(2), 2008, s. 315-338.
15. Kagan R. America`s Crisis of Legitimacy. Foreign Affairs 83(2), 2004, pp. 65-87.
16. Kagan R. Power and Weakness. Policy Review, 2002, № 113, pp. 1-18.
17. Kaldor M. et al. Human security: a new strategic narrative for Europe. International Affairs, 83(2), 2007, s. 273-288.
18. Kupchan C.A. The End of the West / Atlantic Monthly URL: http://www.theatlantic.com/doc/200211/kupchan
19. Losurdo D. Preemptive War, Americanism, And Anti-Americanism. Metaphilosophy, 35 (3), 2004, s. 365-85.

20. Manners I. European Union ‘Normative Power’ and the Security Challenge. European Security, 15(4), 2006, s. 405-421.
21. Maull H.W. Europe and the new balance of global order. International Affairs, 81(4), 2005, s. 775-799.
22. Monteleone M. The New Transatlantic Agenda: Transatlantic Security Relations Between Post-Hegemonic Cooperation and Interdependence. Journal of Transatlantic Studies, 1(1), 2009, s.87-107.
23. Nuland V. United States Permanent Representative to the North Atlantic Treaty Organization Speech to Presse, Club and Am Cham. 22.02.2008.
24. Obama B. Renewing American Leadership. Foreign Affairs, 2007, 86(4), s. 2-16.
25. Posen B. European Union Security and Defense Policy: Response toUnipolarity? Security Studies, 15(2), 2006, s.149-186.
26. Rehn O. Europe`s smart power in its region and the world. The European Studies Centre St Antony`s College, University of Oxforddaki nitqi. 2008, 1 May.
27. Rogers J. From ‘Civilian Power’ to ‘Global Power’: Explicating the Euro-pean Union’s ‘Grand Strategy’ Through the Articulation of Discourse Theory. JCMS, 47 (4), 2009, s. 831-862.
28. Rynning S. Peripheral or Powerful? The European Union`s Strategy to Combat the Proliferation of Nuclear Weapons. European Security, 16(3), 2007, s. 267-288.
29. Salmon T. United in its diversity (or disunited in adversary): That is the question for the European Union and the European security and defence policy. Perspectives on European Politics and Society, 5(3), 2004, s. 447-468.
30. Sangiovanni M.E. Why a Common Security and Defence Policy is Bad for Europe. Survival, 45 (3), 2003, s. 193-206.
31. Sauer T. Struggling on the World Scene: An Over-ambitious EU versus a CommittedIran. European Security, 17(2), 2008, s. 273-293.
32. Talbot B.J. The Transatlantic Gap over Iraq. European Security, 17(1), 2008, s.61-84.
33. Tsoukalis L. The JCMS Lecture: Managing Diversity and Change in the European Union. JCMS, 44(1), 2006, s. 1-15.
34. Vasconcelos A., Zaborowski M. European perspectives on the new American foreign policy agenda. ISS, Paris, 2009.
35. Vasconcelos A. (red.). The European Security Strategy 2003-2008, ISIS Report № 5, 2009.
36. Walt S.M. Taming American Power. Foreign Affairs, 84(5), 2005, s.105-120.
37. Zakaria F. The Future of American Power. Foreign Affairs, 87(3), 2008, s. 18-43.

УДК 94

*М.М.Мамедзаде*
*Гянджинский Государственный Университет*

## АТЛАНТИЧЕСКИЕ ОТНОШЕНИЯ В КОНТЕКСТЕ «ИРАКСКОГО КРИЗИСА»

*РЕЗЮМЕ*

*Ключевые слова:* атлантические отношения, атлантические конфликты, иракский кризис

Хотя по многим вопросам во время холодной войны не было единого мнения, европейцы считали лидерство США и легитимность его власти необходимыми и

желательными. Молодые движения Голлиста, Остполитика и другие, которые выступали за более независимую Европу, отражали желание Европы получить больше свободы действий и меньше зависеть от США. Эти антиамериканские движения распространяют идею о том, что некоторые европейцы считали американскую стратегию холодной войны чрезмерно воинственной, непоследовательной и смертоносной. В этой статье, начиная с начала 1990-х годов, исследуются различия в мнениях европейской общественности, выступавшей против силовой внешней политики Соединенных Штатов Америки.

В исследовании использовались аналитико-индуктивные, историко-системные, сравнительный анализ и аналогии, чтобы изучить иракский кризис, новый мировой порядок, распад биполярной системы и атлантические споры.

Используя более широкий круг источников по теме, основной вклад статьи в науку заключается в углубленном анализе иракской проблемы как наиболее значимого примера противоречий в атлантических отношениях.

Исследование показало, что иракский кризис, как международная проблема, связанная с усилением американского давления и ожиданий в отношении Европы, сыграл значительную роль в возникновении противоречий в атлантических отношениях как на официальном, так и на общественном уровне. Общественность в Европе начинает выражать все более единую позицию в пользу прекращения военной зависимости от США и проведения независимой внешней политики в рамках нового глобального порядка.

UDC 94

*M.M.Mammadzada*
*Ganja State University*

ATLANTIC RELATIONS IN THE CONTEXT OF THE "IRAQ CRISIS"
*SUMMARY*

*Key words:* Atlantic relations, Atlantic conflicts, Iraq crisis

Although there was no unanimous agreement on all subjects during the Cold War, Europeans saw US leadership and its power’s legitimacy as necessary and desired. Europe’s desire to obtain the freedom of action and become less dependent on the United States was reflected in the fledgling Gaullist, Ostpolitik, and other movements that urged Europe to become more independent from the United States. These anti-American movements demonstrate how some Europeans saw American Cold War strategy as being overly inconsistent, belligerent, and deadly. In this article, beginning in the early 1990s, the contrasts of opinion in the European public opposing the power-based foreign policy of the United States, are analyzed against the backdrop of the “Iraq crisis”.

The Iraqi crisis, the new world order, the collapse of the bipolar system, and the Atlantic disputes were studied using scientific approaches such as analytical-inductive, historical-systemic, comparative analysis, and analogies.

Using a wider range of sources on the topic, the article’s primary contribution to science is its in-depth analysis of the Iraq issue as the most significant example of contradictions in Atlantic relations.

The research revealed that the Iraq crisis played a significant role in the emergence of contradictions in Atlantic relations, both at the official and popular levels, as an international

problem associated with increased American pressure and expectations on Europe. The public in Europe is starting to express a becoming increasingly unified attitude in favour of ending military reliance on the US and implementing an independent foreign policy within the framework of the new global order.

***Daxil oldu: 15.03.2024-cü il***